www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-11 (1815) 17 iyun 2025-ci il




## Naxçıvan Dövlət Universiteti ilə əlaqələrimiz möhkəmlənir

**NDU Tibb fakültəsinin 25, ATU-nun 95 illik yubileylərinə həsr olunmuş konfranslar keçirilib**

səh. 2

### Əməkdaşlarımız Qurban bayramı münasibətilə təbrik olunub

səh. 3

### Magistr dissertasiyalarının mövzuları aktual problemlərdən bəhs edir

səh. 4

### Qazaxıstanlı müəllimlər ATU-da akademik fəaliyyət göstərib

səh. 5



### İsrailin Soroka Tibb Mərkəzinin nümayəndələri universitetimizdə olub

ATU-nun rektoru müştərək elmi-tədqiqat işlərinin aparılmasının vacibliyini bildirib

səh. 2

### QİÇS-lə bağlı növbəti maarifləndirici tədbir təşkil edilib

*Prorektor, dosent Mahir Səfərov: Bu istiqamətdə maarifləndirmə işinin aparılmasına həmişə ehtiyac var*

səh.3

### Dəqiq müayinə uğurlu müalicənin əsas şərtidir

*Tədris Onkoloji Klinikada müasir avadanlıqları peşəkarlar idarə edir*

səh. 6



### İmtahanlarla bağlı universitetin rəhbər heyəti ilə görüş keçirilib

Rektor, professor Gəray Gəraybəyli: Əsas məqsədlərimizdən biri tələbələrin praktik biliklərə dərindən yiyələnməsidir

səh. 2

# İsrailin Soroka Tibb Mərkəzinin nümayəndələri universitetimizdə olub

## ATU-nun rektoru müştərək elmi-tədqiqat işlərinin aparılmasının vacibliyini bildirib



**Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli ölkəmizdə səfərdə olan İsrailin Soroka Tibb Mərkəzinin nümayəndə heyətinin üzvləri ilə görüşüb.**

Görüşdə Soroka Tibb Mərkəzi Ben-Gurion Universiteti və ATU arasındakı əməkdaşlığın dərinləşməsi, pediatriya sahəsində təhsilin gücləndirilməsi ilə bağlı məsələlər müzakirə edilib. Professor G.Gəraybəyli qonaqlara Azərbaycan Tibb Universitetinin tarixi və fəaliyyəti, təhsil ocağının son illərdə beynəlxalq arenada qazandığı uğurlar, təhsil və tədris prosesinin quruluşu və digər məsələlər haqqında ətraflı məlumat verib. Bu yaxınlarda ATU-nun 95 illik yubileyinə həsr olunan Tibb Festivalı haqqında həmkarlarını məlumatlandıran rektor G.Gəraybəyli, hazırda əcnəbi tələbələrin sayına görə universitetin ölkəmizdə birinci yerdə olduğunu da qeyd edib. Dünyanın aparıcı elmi-tibb ocaqları ilə qurulan əməkdaşlıqlar barədə danışan ATU-nun rektoru, bu sırada İsrailin Ben Gurion Universiteti və Soroka Tibb Mərkəzini xüsusi vurğulayıb, müştərək elmi-tədqiqat işlərinin aparılmasının vacibliyini qeyd edib. Soroka Universiteti Tibb Mərkəzinin Uşaq neyrocərrahiyyəsi şöbəsinin direktoru dr. Mikki Gideon, öz növbəsində Bakıya yenidən səfər etməkdən məmnun olduğunu bildirib. O təmsil etdiyi tibb mərkəzinin ATU ilə mövcud əməkdaşlığından söz açaraq, bu əlaqələri gücləndirməyin əhəmiyyətini qeyd edib. Doktor M.Gideon bir müddət əvvəl Azərbaycana səfəri zamanı ATU-nun tələbələri qarşısında çıxış etdiyini, yerli neyrocərrahlarla görüşdüyünü, burada konsultasiya həyata keçirdiyini də xatırladıb.

Mərkəzin pediatriya xəstəxanasının rəhbəri, professor Dudi Qrinberq Soroka klinikasının İsrailin ən böyük müalicə-diaqnostika mərkəzlərindən biri olduğunu vurğulayıb. İsrailin cənubunda yerləşən bu mərkəzdə təxminən 1 milyon insana tibbi xidmətlər göstərilir. Geniş spektrli tibbi xidmətlər göstərən klinikada Uşaq xəstəlikləri, Onkoloji mərkəzlərlə yanaşı, Travmatologiya və təcili yardım şöbəsi və qabaqcıl tibbi texnologiyalarla təchiz edilmiş diaqnostik laboratoriyalar fəaliyyət göstərir. Qonaq fövqəladə hallar zamanı strateji əhəmiyyətə malik olan Soroka Tibb Mərkəzi ilə ATU-nun pediatriya, eləcə də digər ixtisaslar üzrə tərəfdaşlığının gücləndirilməsi barədə fikirlərini açıqlayıb.

Soroka xəstəxanasının Uşaq qastroenterologiyası şöbəsinin rəhbəri professor Barux Yeruşalmi, Endokrinologiya şöbəsinin rəhbəri professor Eli Herşkovits, Uşaq kardiologiyası şöbəsinin rəhbəri dr. Xana Krimko, ATU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Orxan İsayevin də iştirak etdiyi görüşdə pediatriya ilə yanaşı, digər sahələrdə qarşılıqlı əməkdaşlığın istiqamətləri müzakirə olunub. Qonaqlar daha sonra ATU-nun Anatomiya muzeyini ziyarət edib, 1919-cu ildə əsası qoyulan muzeyin inkişaf tarixi və zəngin kolleksiyası ilə tanış olublar.

# İmtahanlarla bağlı universitetin rəhbər heyəti ilə görüş keçirilib

## Rektor, professor Gəray Gəraybəyli: Əsas məqsədlərimizdən biri tələbələrin praktik biliklərə dərindən yiyələnməsidir



**2024/2025-ci tədris ilinin yaz semestrinin yay imtahan sessiyasının başlanması və Dövlət Buraxılış İmtahanlarının keçirilməsi ilə əlaqədar olaraq, rektor, professor Gəray Gəraybəyli universitetin rəhbər heyətilə görüşüb.**

Görüşdə universitetin Tədris işləri üzrə prorektoru, professor Nazim Pənahov, Tədris departamentinin rəhbəri, dosent Kamandar Yaqubov, dekanlar və imtahan komissiyasının sədrləri iştirak edib. Rektor G.Gəraybəyli imtahanın gedişi, hazırlıq işləri və digər məsələlərlə maraqlanıb, tələbələrin bilik səviyyəsinin qiymətləndirilməsində ədalət prinsipinin qorunmasının vacibliyini vurğulayıb. O, hansısa tələbəyə şişirdilmiş qiymət verməklə digər tələbələrin haqqına girilməməsini, humanist prinsiplərin əsas tutulmasını tövsiyə edərək, imtahanla bağlı lazımi tapşırıqlarını verib.

Tədris departamentinin rəhbəri K.Yaqubov bildirib ki, Müalicə-profilaktika fakültəsinin tələbələri Bakı Sağlamlıq Mərkəzinin (BSM) Simulyasiya Mərkəzində 3 bacarıq imtahanı verəcək: "İmtahanlar bu ayın 10-dan başlayacaq, 24-dək davam edəcək. İmtahanların ikinci mərhələsi isə test formasında keçiriləcək, 50 ballıq sistemlə qiymətləndiriləcək". Departament rəhbəri Hərbi tibb fakültəsi kursantlarının iki bacarıq imtahanlarının da BSM-də baş tutacağını bildirib.

Professor G.Gəraybəyli bacarıq imtahanlarının Bakı Sağlamlıq Mərkəzində keçirilməsini yüksək qiymətləndirib. Bildirib ki, praktik təlim və əldə edilmiş bilik və bacarıqların səviyyəsinin qiymətləndirilməsi üçün mərkəz ən müasir texnologiyalara malikdir: "Ötən il tələbələrdən Bakı Sağlamlıq Mərkəzindəki nəticələrinə əsasən fərqlənmədən çıxanlar olmuşdu. Dəfələrlə təkrar imtahan keçirilməsi üçün müraciət etsələr də, buna yol verilmədi. Biliklərin praktik cəhətdən BSM-də yoxlanılması müsbət haldır. Həm də orada imtahan götürənlər Tibb Universitetinin müəllimləri deyil. Çox yaxşıdır ki, heç kim imtahanlara müdaxilə edə bilmir, biliklər şəffaf şəkildə dəyərləndirilir. Elə bizim əsas məqsədlərimizdən biri də tələbələrin təkcə nəzəri deyil, həm də praktik biliklərə dərindən yiyələnməsidir".

# Rektor qarşılıqlı əməkdaşlığa dair yeni memorandum imzalayıb



**Bu günlərdə Azərbaycan Tibb Universiteti və V.Y.Axundov adına Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutu arasında qarşılıqlı əməkdaşlıq haqqında memorandum imzalanıb.**

ATU-nun rektoru, professor Gəray Gəraybəyli tərəfindən imzalanmış sənədi Beynəlxalq əlaqələr üzrə prorektor, dosent Orxan İsayev institutda keçirilmiş görüşdə direktor, professor Adil Allahverdiyevə təqdim edib.

Görüş zamanı professor A.Allahverdiyev ATU-nun nümayəndə heyətinə institutun elmi potensialı haqqında geniş məlumat verib, qonaqları institutun elmi-tədqiqat, klinik və biokimya laboratoriyaları, kitabxana, poliklinika, intensiv terapiya və digər şöbələri ilə tanış edib.

Qeyd edək ki, əməkdaşlıq istiqamətləri haqqında müzakirələrin aparıldığı görüşdə universitetimizin Elmi Tədqiqatların İdarə Olunması Departamentinin rəhbəri, professor Eldar Qarayev və Əczaçılıq toksikologiyası və kimya kafedrasının assistenti İlkin Nəsirli də iştirak ediblər.



# Naxçıvan Dövlət Universiteti ilə əlaqələrimiz möhkəmlənir

## NDU Tibb fakültəsinin 25, ATU-nun 95 illik yubileylərinə həsr olunmuş konfranslar keçirilib

**Mayın 29-30-da Elm və Təhsil Nazirliyi, Naxçıvan Dövlət Universiteti, Azərbaycan Tibb Universiteti və Qarabağ Universitetinin birgə təşkilatçılığı ilə Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin 25 illik yubileyinə həsr edilmiş "Tibb təhsili: qabaqcıl təcrübələr və innovasiyalar" I Respublika elmi konfransı və "Cərrahi və mama-ginekoloji problemlərə multidisiplinar yanaşmalar" beynəlxalq elmi-praktik konfransı keçirilib.**

Konfrans iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyub, Ulu Öndərin adını daşıyan muzeyi ziyarət ediblər.

Tədbirdə Türkiyə və Azərbaycanın müxtəlif bölgələrindən 120-dək yüksək ixtisaslı həkim-mütəxəssis iştirak edib.

Rektor Elbrus İsayev Naxçıvan Dövlət Universitetində Tibb fakültəsinin yaradılmasını muxtar respublikada səhiyyənin inkişafında önəmli dönüş nöqtəsi kimi qiymətləndirib. Bildirib ki, Naxçıvan Muxtar Respublikasının səhiyyə sistemində tibbi kadrlara olan zəruri ehtiyacları nəzərə alan Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü və dəstəyi ilə 1999-2000-ci tədris ilində Naxçıvan Dövlət Universitetində baza ali tibb təhsilinin əsası qoyulub, universitetə böyük və əvəzsiz etimad göstərilib.

Bu günədək Tibb fakültəsindən mindən artıq həkimin məzun olduğunu qeyd edən E.İsayev hazırda fakültədə 9 ixtisas üzrə, o cümlədən SABAH qruplarında Azərbaycan və ingilis dili bölmələrində 2000-dən çox tələbənin təhsil aldığını diqqətə çatdırıb: "2012-ci ildən Tibb fakültəsinin nəzdində rezidentura hazırlığı başlanıb və bu gün fakültədə 33 ixtisas üzrə 88 rezident təhsil alır. Ümumilikdə isə bu günədək rezidentura üzrə məzun sayı 109 nəfər təşkil edib. Tələbə və rezident məzunlar arasında 226 nəfər xarici ölkə vətəndaşı olub".

Rektor E.İsayev dövlət başçısının 2023-cü il 5 iyun tarixli "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" haqqında Sərəncamı ilə Naxçıvan Dövlət Universitetində tibb elmləri proqramlarının tətbiqinin prioritet istiqamətlərdən biri kimi müəyyən edildiyini bildirib, bu əsasda universitetdə yaradılacaq Tibb kampusu barədə ətraflı məlumat verib. O, 2024-2025-ci tədris ilində Naxçıvan Dövlət Universitetinə bu ixtisas üzrə 21 nəfərin qəbul olunduğunu, ölkə universitetləri arasında da ilk dəfə "Tibb" ixtisası üzrə SABAH qrupları yaradıldığını vurğulayıb.

Sonra Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli çıxış edib. 25 il öncə Naxçıvan Dövlət Universitetində Tibb fakültəsinin yaradılmasını gələcəyə hesablanmış tarixi hadisə kimi dəyərləndirən rektor qeyd edib ki, Azərbaycan Tibb Universiteti və NDU arasında əlaqələr əməkdaşlıq memorandumu ilə rəsmiləşib, ortaq layihələr ilə davamlı şəkildə möhkəmlənib.

Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun rektoru Nazim Qasımov Tibb fakültəsinin fəaliyyətə başlamasının əhəmiyyətindən danışıb.

Videotəqdimatla çıxış edən Səmərqənd Dövlət Tibb Universitetinin rektoru, professor Cəsur Rzayev NDU ilə əməkdaşlığın davamlı fəaliyyətlərə yol açdığını ifadə edib.

Qarabağ Universiteti klinikasının direktoru Samir Babayev NDU ilə işbirliyinin qurulmasını, Tibb fakültəsinin 25 il ərzində qazandığı təcrübələrin paylaşılmasını yüksək qiymətləndirib.

Türkdilli Dövlətlərin Tibb Cəmiyyətləri Birliyinin sədri Serkan Eroğlu, Sakarya Universitetinin Tibb fakültəsinin dekanı Fatih Altıntorpak, Naxçıvan Dövlət Universiteti Xəstəxanasının baş həkimi, Naxçıvan Dövlət Universiteti Tibb fakültəsinin məzunu, Naxçıvan MR Ali Məclisinin deputatı Elmar Rzayev Tibb fakültəsinə fəaliyyətində uğurlar arzulayıblar.

Sonra bir qrup həkimə fəxri adlar və nişanlar təqdim olunub, universitetin incəsənət kollektivi və Tibb fakültəsinin tələbələrinin iştirakı ilə hazırlanmış bədii hissə izlənilib.



NDU Tibb fakültəsinin 25 illik yubileyinə həsr edilmiş "Tibb təhsili: qabaqcıl təcrübələr və innovasiyalar" I Respublika elmi konfransında 3 istiqamət üzrə 3 paneldə 10 müəssisə tərəfindən 38 müəllifin təqdim etdiyi 23 məqalə üzrə bölmə iclasları olub.

Azərbaycan Tibb Universitetinin 95 illik yubileyinə həsr olunmuş "Cərrahi və mama-ginekoloji problemlərə multidissiplinar yanaşmalar" beynəlxalq elmi-praktik konfransının bölmə iclaslarında isə 27 elm-təhsil müəssisəsi tərəfindən 7 panel üzrə 92 məruzəçi tərəfindən təqdim olunan 87 məqalə dinlənilib. İki gün ərzində davam edən konfransların sonunda iştirakçılara sertifikatlar verilib.

# Prorektor yeni formatda buraxılış imtahanlarını izləyib



**İyunun 3-də Azərbaycan Tibb Universitetində bakalavr pilləsi üzrə buraxılış imtahanları keçirilib. Ötən illərdən fərqli olaraq bu il yeni imtahan formatı tətbiq olunub.**

Tədris işləri üzrə prorektor, professor Nazim Pənahov imtahan prosesinə nəzarət edib və mühüm yeniliklər haqqında fikirlərini bölüşüb. Prorektor bildirib ki, Azərbaycan Tibb Universitetinin Elmi Şurasının qərarına əsasən, bu il İctimai səhiyyə, Əczaçılıq və Stomatologiya fakültələrində buraxılış imtahanları yeni formatda keçirilir. Belə ki, imtahanlar iki mərhələdə üç qiymətləndirmə yolu ilə aparılır. Tələbələr ilk gündə nəzəri və praktik biliklər üzrə imtahan verirlər. İkinci gün isə imtahanlar OSKİ formatında keçirilir.

"İmtahanlar hər fakültənin xüsusiyyətlərini nəzərə alaraq təşkil olunub. Yeni format sayəsində tələbə öz kommunikasiya bacarıqlarını nümayiş etdirir, müəllimlə bir başa əlaqə qurur, fikrini şifahi ifadə edir. Beş sualı cavablandırmaq üçün beş müəllim cəlb olunur. Bu gün üç fakültədə keçirilən imtahanların gedişatı ilə tanış oldum. Fakültələrin rəhbərliyi, müəllimlər və tələbələr imtahanların təşkilindən razı qaldıqlarını bildirdilər", - deyə professor N.Pənahov vurğulayıb.

**Universitetimizdə Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyası, Səhiyyə İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsi və ATU-nun Həmkarlar İttifaqı Komitəsinin birgə təşkilatçılığı ilə Qurban bayramı münasibətilə tədbir keçirilib.**

# Əməkdaşlarımız Qurban bayramı münasibətilə təbrik olunub



Tədbiri universitetin Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent Cahangir Qasımov açıb. O, tədbir iştirakçılarına universitetin rektoru, professor Gəray Gəraybəylinin salamlarını və təbrikini çatdırıb. Sonra sözü Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyası (AHİK) sədrinin müşaviri Cəmaləddin Quliyevə verib.

Sədrin müşaviri, tədbir iştirakçılarını AHİK sədri adından təbrik edib. Bildirib ki, təmsil etdiyi təşkilatın tərkibindəki respublika komitələrinin ən öndə gedənlərindən biri, ən irihəcmlisi Səhiyyə İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsidir. C.Quliyev nəzərə çatdırıb ki, işçilərin əməyinin mühafizəsi və istirahətlərinin səmərəli təşkili ilə bağlı bir sıra əhəmiyyətli layihələr həyata keçirilir. Təhlükəsiz iş şəraitinin yaradılmasına daim diqqət mərkəzindədir.

Azərbaycan Səhiyyə İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Elnara Muradova da çıxışı zamanı rəhbərlik etdiyi komitənin fəaliyyətindən söhbət açıb. Ölkəmizdə həmkarlar təşkilatının 120 ildir fəaliyyət göstərdiyini qeyd edib: "İşçilərin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində lazımi addımlar atırıq. Öz fəaliyyətimizi imkanlarımız hesabına qurur və məqsədlərimizə doğru irəliləyirik. İşçilərin əmək prosesində hüquqlarını qoruyur, əmək və həyat şəraitinin yaxşılaşdırılması istiqamətində işlər görürük. "Kurort-turizm" İnformasiya Mərkəzinin və əməyin mühafizəsi üçün hüquqi yardım mərkəzlərinin yaradılmasını buna misal göstərmək olar.

Qürur duyuruq ki, səhiyyə sahəsində fəaliyyət göstəririk. Həmişə işçilərin mənafeyini qorumuşuq. Çalışmışıq ki, sertifikasiyadan keçə bilməyən həkimlərin növbəti sertifikasiyaya qədər maşları tam şəkildə ödənilsin. Qurban Bayramı həm də insanların bir-birinə mərhəmətinin, qarşılıqlı hörmətin bayramıdır. Bura əliboş gəlməmişik, sizə hədiyyə kartları gətirmişik".

E.Muradova tədbir iştirakçılarını bayram münasibəti ilə təbrik etdikdən sonra "Araz" marketlər şəbəkəsində alış-veriş etmək məqsədilə onlara hədiyyə kartları paylanılıb.

# QİÇS-lə bağlı növbəti maarifləndirici tədbir təşkil edilib

## Prorektor, dosent Mahir Səfərov: Bu istiqamətdə maarifləndirmə işinin aparılmasına həmişə ehtiyac var

**Respublika QİÇS-lə Mübarizə Mərkəzi Azərbaycan Tibb Universitetinin əməkdaşları və tələbələri üçün növbəti maarifləndirici tədbirlərindən birini keçirib.**

Universitetin Tərbiyə işləri üzrə prorektoru, dosent Mahir Səfərov belə bir tədbirin keçirilməsinin zərurətdən yarandığını qeyd edib: "İİV/QİÇS mövzusu təkcə bizim deyil, bütün bəşəriyyətin problemidir. Doğrudur, xəstəliyə qarşı mübarizədə xeyli işlər görülüb, amma bu istiqamətdə maarifləndirmə işinin aparılmasına həmişə ehtiyac var. Bu gün Mərkəzin direktor müavini Günəş Cəfərova "Azərbaycanda İİV/QİÇS-lə bağlı epidemioloji vəziyyət və xəstəliyin idarə edilməsində müasir yanaşmalar" mövzusunda çıxış edəcək".

Direktor müavini öncə tədbirin keçirilməsinə yaratdığı şəraitə görə, universitet rəhbərliyinə təşəkkürünü bildirib. İİV/QİÇS mövzusunun bəşəriyyət üçün aktual və qlobal problemlərdən biri olduğunu qeyd edən G.Cəfərova dünyada İİV virusundan 40 milyona yaxın insanın əziyyət çəkdiyini bildirib: "Onlardan antiretrovirus terapiyaya, yəni müalicəyə cəlb olunmuşların sayı 30.7 milyon nəfər təşkil edir. Hər il İİV-ə yeni yoluxanların sayının artması qeydə alınır. Təəssüf ki, təkcə 2022-ci ildə dünyada yeni yoluxanların sayı 1.3 milyona çatıb, İİV-ə yoluxmuşlar arasında QİÇS-lə əlaqəli ağırlaşmaların nəticəsində ölüm halları olub. Azərbaycanın Şərqi Avropa və Mərkəzi Asiya məkanında yerləşməsinə, qonşu ölkələrə nisbətən bizdə əhalinin sayının çox olmasına baxmayaraq, aparılan əks-epidemik, profilaktik tədbirlər sayəsində ölkəmizdə İİV yayılma və xəstəliyin göstəricisinə görə ən aşağı səviyyədədir".




G.Cəfərova ölkəmizdə epidemioloji vəziyyətlə də bağlı məlumat verib. O, respublikada ilk dəfə İİV-in 1987-ci ildə aşkar olunduğunu və həmin dövrdən etibarən rəsmi qeydiyyatın aparıldığını söyləyib: "Ötən ilin sonunadək Respublika QİÇS-lə Mübarizə Mərkəzində 12 min 226 nəfər qeydiyyata alınıb. Onların 97 faizini ölkə vətəndaşları təşkil edir. Bu illər ərzində dünyasını dəyişənlərin sayı isə 1540 nəfərə çatıb. Ötən ilin sonuna olan məlumata görə, İİV-lə yaşayanların sayı 10 min 324 nəfərdir. Onların 70 faizini kişilər, 30 faizini isə qadınlar təşkil edir. Ən çox yoluxma hallarına isə 25-49 yaş qrupunda rast gəlinir. Amma təəssüflər olsun ki, xəstəliyə yoluxma halı gəncləşib. 17 yaşadək olanlar arasında bu göstərici 1.8 faiz, xəstəliyin son mərhələsində yaşayanlar isə 21 faiz təşkil edir".

Direktor müavininin çıxışından məlum olub ki, xəstəliyə inyeksiyon narkotik istifadəçiləri arasında yoluxma halları əvvəlki illərdə daha çox müşahidə edilib. Amma aparılan profilaktik proqram və tədbirlər sayəsində həmin qruplar arasında yoluxma hallarının faizi xeyli aşağı düşüb, son illər cinsi yolla yoluxma faizi üstünlük təşkil edib.

O, həmçinin ölkəmizdə aparılan anonim müayinələrdən də söhbət açıb. Müayinələrin hazırda hərtərəfli həyata keçirildiyini bildirib: "Respublika üzrə bütün struktur və bölmələrdə anonimlik qorunmaq şərtilə İİV müayinəsi üçün hər cür şərait yaradılıb. Mərkəzin tabeliyində 10 ədəd regional laboratoriya fəaliyyət göstərir. İctimai yerlərdə səyyar müayinələr də aparırıq".

Tədbir zamanı Mərkəzin direktoru Famil Məmmədov və müavini Günəş Cəfərova verilən sualları ətraflı şəkildə cavablandırıb. Növbəti müayinələrdən birinin ATU-da təşkil olunacağı tədbir iştirakçılarının diqqətinə çatdırılıb.

# Polis əməkdaşlarının çıxışları tələbələrin marağına səbəb olub





**Universitetimizin tələbə və kursantları üçün daha bir maarifləndirici seminar keçirilib. Seminarı Tərbiyə işləri üzrə prorektor, dosent Mahir Səfərov açaraq bildirib ki, bugünkü mövzu cəmiyyətin ciddi probleminə çevrilmiş, gənclərimizi ağuşuna alan narkomaniya və dini radikalizm, o cümlədən kibercinayətkarlıqla bağlı olacaq.**

Prorektor narkomaniya və dini radikalizm, onların cəmiyyətdə yaratdığı fəsadlar və qorunma yolları ilə bağlı tələbələri məlumatlandırmaq üçün sözü Nəsimi Rayon Polis İdarəsinin rəisi, polis polkovniki Vüqar Ağayevə verib.

Polis rəisi narkotik vasitələrinn fəsadları, qarşısının alınması üçün maarifləmə tədbirlərinin aparılmasının zəruriliyindən danışıb: "Cəmiyyətdə narkomaniyanın yayılması və buna qarşı aparılan mübarizənin effektli olmaması belə tədbirlərin keçirilməsinə səbəb olur. Hesab edirəm ki, aparılan mübarizə təkcə hüquq-mühafizə orqanlarının işi deyil, eyni zamanda hər kəs bu məsələdə fəallıq nümayiş etdirməli, mübarizəyə qoşulmalıdır".

Polkovnik V.Ağayev ölkəmizdə 36 min 659 narkomanın qeydiyyatda olduğunu, onlardan 852 nəfərini qadınların təşkil etdiyini bildirib. Qeydiyyatda olanların 1147 nəfərinin Nəsimi rayonu ərazisində yaşadığını, onların 55-nin qadınlar olduğunu təəssüflə qeyd edib.

V.Ağayev, eyni zamanda dini radikalizmin ən çox gənclərə vurduğu ziyandan da söhbət açıb. Bu səbəbdən onları müxtəlif dini qruplaşmalara qoşulmamağa çağırıb, dini terror təşkilatlarının qurbanına çevrilməmək üçün lazımi tövsiyələrini verib.

Nəsimi Rayon Polis İdarəsinin əməkdaşı, polis kapitanı Araz Bayramov isə tələbələri kibercinayət, onun cəmiyyətə vurduğu ziyan, qorunma yolları ilə bağlı məlumatlandırıb. O, kibercinayətkarların qurbanı olmamaq üçün tələbələri ayıq-sayıqlığa dəvət edib: "Ola bilər ki, sosial şəbəkələr vasitəsilə sizlərə mesajlar gələr, şirnikləndirici oyunlara dəvət edərlər. Kart məlumatlarınız və digər məlumatları istəyərlər. Bu cür hallara rast gələndə ehtiyatlı və diqqətli olun. Özünüzlə bağlı məlumatları kimsəyə ötürməyin. Bəzən yaxın qohum və ya dostların səsi ilə telefonla danışır, müxtəlif bəhanələr uydurur, sizə kart nömrəsi göndərərək ora pul köçürməyi tələb edə bilərlər. Şübhəli zənglər vasitəsi ilə edilmiş bu cür istəkləri yerinə yetirməyin".

Çıxışlar zamanı cinayətkar dəstələrin törətdiyi çoxsaylı nümunələr səsləndirilib, tələbələri maraqlandıran suallar rəis V.Ağayev və kapitan A.Bayramov tərəfindən ətraflı cavablandırılıb.

Sonda ATU-nun Epidemiologiya və biostatistika kafedrasının müdiri, professor İbadulla Ağayev çıxış edib. O, keçirilən tədbirin əhəmiyyətini vurğulayaraq, ictimai asayişi yüksək səviyyədə qoruduğuna, cəmiyyətdə zərərli vərdişlərə qarşı mütəşəkkil mübarizə apardığına görə polis işçilərinə təşəkkürünü bildirib.

Tədbir zamanı polis əməkdaşları tərəfindən maarifləndirmə məqsədi ilə tələbələrə broşürlər paylanıb.

# ATU-nun şöbə müdiri Özbəkistanda səfərdə olub



Azərbaycan Tibb Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri, Patoloji anatomiya kafedrasının dosenti Müşfiq Orucov Özbəkistanda səfərdə olub.

Səfər zamanı M.Orucov ATU-nun rəsmi əməkdaşlıq etdiyi Səmərqənd Dövlət Tibb Universiteti və Əbu Əli ibn Sina adına Buxara Dövlət Tibb İnstitutunda olub, rəhbərlik və professor-müəllim heyətləri ilə görüşüb. Görüşlər zamanı tədris müəssisələrimiz arasındakı elmi, tədris və mədəni əməkdaşlığın gələcək perspektivləri müzakirə edilib.

# Əməkdaşlarımız Sinqapurdan qayıdıb




Ağız və üz-çənə cərrahiyyəsi kafedrasının əməkdaşları Sinqapurda keçirilən Beynəlxalq Üz-çənə Cərrahları Assosiasiyasının (ICOMS) Ümumdünya Konqresində iştirak ediblər. 82 ölkədən 2000-dən çox iştirakçının qatıldığı konqres üz-çənə cərrahiyyəsi sahəsində fəaliyyət göstərən mütəxəssislərin qlobal gücünü və birliyini əks etdirir. Bu ixtisas sahəsi insanın zahiri görkəmini və bununla da sosial statusunu müəyyən edən ən mühüm anatomik sahələrdən birinin bərpası və təkmilləşdirilməsinə yönəlib. 150-dən çox elmi sessiyanı əhatə edən konqresdə ən son tədqiqatlar, zəngin klinik təcrübə və maraqlı müzakirələr təqdim edilib, üz-çənə cərrahiyyəsinin gələcək inkişaf istiqamətləri müəyyənləşdirilib.

Əsasən ATU-nun əməkdaşlarının təmsil olunduğu Azərbaycan Ağız və Üz-çənə Cərrahları Cəmiyyəti bu tədbirdə iştirak edən qurumlar arasında "Fəxri Qonaq Cəmiyyət" statusunu alıb. Azərbaycan nümayəndə heyətinə Ağız və üz-çənə cərrahiyyəsi kafedrasının müdiri, professor Çingiz Rəhimov rəhbərlik edib. Nümayəndə heyətinə daxil olan dosentlər F.İ.Həsənov, N.N.Soltanova, İ.M.Fərzəliyev və T.A.Əliyev dəvət olunmuş məruzəçilər qismində çıxış ediblər. O cümlədən kafedranın assistentləri R.Ə.İbrahimov və E.M.Əliyev poster formatında, doktorant G.A.Əliyeva isə şifahi təqdimatla öz elmi işlərini tədbir iştirakçılarının diqqətinə çatdırıblar. Nümayəndə heyətimizin üzvləri şəxsi görüşlər zamanı müxtəlif ölkələrdən olan həmkarlarına Azərbaycanın nailiyyətləri, mədəni həyatının rəngarəngliyi, xalqımızın ənənəvi qonaqpərvərliyi və turizm baxımından cəlbediciliyi barədə məlumat veriblər.

# Azərbaycan nevroloqları İspaniyada səfərdə olub



27-31 may tarixlərində nevroloqlardan ibarət Azərbaycan nümayəndə heyəti İspaniyanın Barselona şəhərində yerləşən Bellvitge klinikası, La ille xəstəxanası, Reabilitasiya mərkəzi, Ferrer zavodu və Barselona Universiteti ziyarət edib.

Səfərin məqsədi Barselona klinikalarında insultun və onun reabilitasiyasının idarə edilməsinin təşkili, habelə Reabilitasiya mərkəzində neyrofizioloji tədqiqatlar bölümünün işi ilə yaxından tanış olmaq, bilik və təcrübə mübadiləsi aparmaq olub.

Azərbaycan Tibb Universitetinin professoru Sədaqət Hüseynova Ferrer zavodu ilə əməkdaşlıq çərçivəsində ATU və Səhiyyə Nazirliyinin Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutunda aparılmış elmi-tədqiqat işlərinin nəticələri haqqında məlumat təqdim edib. Görüş zamanı yeni əməkdaşlıq istiqamətləri müzakirə olunub.

# Tələbələrimiz beynəlxalq konfransda uğur qazanıb



Səmərqənd Dövlət Tibb Universitetinin təşkilatçılığı ilə tibb universitetlərinin tələbə və gənc alimləri üçün "Fundamental, tətbiqi tibb və əczaçılıq sahəsində nailiyyətlər" adlı 79-cu beynəlxalq elmi-praktik konfransı keçirilib.

Universitetimizin tələbələri də bu nüfuzlu tədbirə qatılaraq, öz ixtisaslarına uyğun müxtəlif elmi-praktiki mövzularda məruzələrlə çıxış edib, qaliblar arasında yer alıblar.

Tələbələrimizdən I Müalicə-profilaktika fakültəsinin 120R2b qrup tələbəsi Rafiq Aslanov, II Müalicə-profilaktika fakültəsinin 220A10a qrup tələbəsi Səbinə Həsənzadə və 221A2a qrup tələbəsi Həmid Səfərli, Stomatologiya fakültəsinin 421A1a qrup tələbəsi Emin Abbasov, Əczaçılıq fakültəsinin 522R1b qrup tələbəsi Teymur Rəhimov, İctimai səhiyyə fakültəsinin 321R1a qrup tələbəsi Fərman Qurbanlı I yerə, I Müalicə-profilaktika fakültəsinin 219A2a qrup tələbəsi Fidan Seyfullayeva II yerə, I Müalicə-profilaktika fakültəsinin 120A4b qrup tələbəsi Həmayə Sofiyeva və Hərbi tibb fakültəsinin 620A1b qrup tələbəsi İqbal Babazadə III yerə layiq görülüblər.

**Mayın 5-də İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasında Menecment ixtisasının "Menecment" (səhiyyə sahəsi üzrə) ixtisaslaşması üzrə magistr dissertasiyalarının müdafiəsi keçirilib. Müdafiə prosesində İxtisaslaşdırılmış Müdafiə Şurasının üzvləri ilə yanaşı, Rezidentura və magistratura şöbəsinin müdiri, dosent İlhamə Mustafayeva, həmin şöbənin müdir müavini, dosent Əfsanə Məmmədova da iştirak ediblər.**

# Magistr dissertasiyalarının mövzuları aktual problemlərdən bəhs edir



Kafedranın müdiri, dosent Yaqut Hacıyevanın verdiyi məlumata görə, magistrantlar öz çıxışlarını prezentasiya formasında təqdim edərək, onlara verilən sualları hərtərəfli cavablandırıblar. Rəyçilərin fikirləri iştirakçılar tərəfindən dinlənilərək geniş diskussiyalar aparılıb.

Qeyd edək ki, kafedrada 2020-ci ildən başlayaraq magistr tədrisi aparılır. Magistr tədrisi iki növbədə (birinci və ikinci növbə) aparılmaqla yanaşı, Azərbaycan bölməsindən başqa, ingilis bölməsində də Somalidən olan bir tələbə bu il təhsilini başa vurur.

Magistr dissertasiyalarının mövzuları kafedranın 5 illik elmi proqramına uyğun olaraq, həmçinin ictimai sağlamlıq və səhiyyə sisteminin ən aktual problemlərinə həsr edilir. Dissertasiyalarda menecmentdə liderliyin rolu, tibbi marketinqin əsasları, səhiyyədə insan resurslarının idarə olunması, tibb müəssisələrində idarəetmə prinsipləri, informasiya sistemlərinin səhiyyədə tətbiqi, icbari tibbi sığortanın tətbiqi şəraitində tibbi xidmətin vəziyyəti və s. məsələlər öz əksini tapıb.

Onu da xatırladaq ki, dissertasiya mövzularının yerinə yetirilməsi ərəfəsində TƏBİB-in tabeliyində olan tibb müəssisələri, ATU-nun klinikaları və özəl klinikalarla sıx əlaqələr qurulur.

Dissertasiya mövzularına kafedranın elmi dərəcəsi olan professor-müəllim heyəti rəhbərlik edir. İki il ərzində magistrlərə 17 fənn tədris olunur. 5 il müddətində kafedrada məhz magistrlər üçün tədris proqramına uyğun 5 dərslik hazırlanıb, 2 dərslik hazırlanma mərhələsindədir.

Hazırda kafedrada I kursda 15 nəfər təhsil alır, II kursda isə 16 nəfər magistr təhsilini yekunlaşdırır.

# Ölkəmizdə uzunömürlülük fenomeninin tədqiqi uzun tarixə malikdir

**Bu yaxınlarda Misirin paytaxtı Qahirədə yerləşən Amerika Universitetində Uzunömürlülük üzrə Qlobal Kohort Araşdırmalar Şəbəkəsinin (GSCNS) "Uzunömürlülüyün sirlərini açmaq: sağlam uzunömürlülük" şüarı ilə birinci beynəlxalq konfransı keçirilib. Hibrid formada təşkil olunan beynəlxalq konfransda Azərbaycan, Misir, Gürcüstan, ABŞ və digər ölkələrdən mütəxəssislər iştirak edib.**



Tədbirə fəxri qonaq qismində dəvət olunan Azərbaycanın Misirdəki səfiri Elxan Poluxov çıxışında bildirib ki, konfransda Azərbaycandan böyük nümayəndə heyətinin iştirakı heç də təsadüfi deyil. Belə ki, uzunömürlülük fenomeni təbii sərvətlərlə zəngin Azərbaycan üçün xarakterikdir və ölkəmizdə bunun üçün münasib şərait mövcuddur.

Misirin "Qızıl illər" Fondunun təsisçisi və rəhbəri Dina Hashish rəhbərlik etdiyi qurumun həyata keçirdiyi təşəbbüslərdən və dünyanı qocalmaq üçün daha yaxşı bir yerə çevirmək məqsədilə fəaliyyətlərdən danışıb.

Daha sonra Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Şərqi Aralıq dənizi regional ofisinin elm, informasiya və yayım üzrə direktoru Araş Rașidianın "Şərqi Aralıq dənizi regionunda təsirli, genişmiqyaslı kohort tədqiqatlarının aparılması məqsədilə milli imkanların artırılması üçün ÜST strategiyaları" mövzusunda çıxışı dinlənilib.

Eyni zamanda, tədbirdə uzunömürlülüyü şərtləndirən amillər, eləcə də Azərbaycanda, Misirdə və digər ölkələrdə bu yaş kateqoriyasından olan insanlar üçün dövlət və ictimai təşkilatlar tərəfindən həyata keçirilən proqramlar, qocalmanın demoqrafiyası, neyrodegenerativ xəstəliklər, pəhriz və qidalanmanın uzunömürlülüyə təsiri, uzunömürlülüyün psixoloji və psixiatrik ölçüləri və s. mövzular barədə təqdimatlar edilib.

Məhəmməd Ağazadənin Azərbaycanın uzunömürlülər diyarı Lerik barədə təqdimatı maraqla qarşılanıb. Qeyd olunub ki, Azərbaycanda uzunömürlülük fenomeninin tədqiqi uzun tarixə malikdir. Hələ ötən əsrin 70-ci illərində Azərbaycan sakinləri - Mahmud Eyvazov, Şirəli Müslümov, Məcid Ağayev, Xan Xanım və başqalarının arasında uzunömürlülük fenomeninin tədqiqi əsasında bu işin elmi əsasları qoyulub.

ATU-nun Beynəlxalq əlaqələr şöbəsinin müdiri, Patoloji anatomiya kafedrası müdirinin tədris işləri üzrə müavini, dosent Müşfiq Orucov, I Mamalıq və ginekologiya kafedrasının professoru Nigar Kamilova və Bioloji kimya kafedrasının nəzdindəki Elmi-tədqiqat laboratoriyasının elmi işçisi Hafiz Osmanov da konfransda iştirak ediblər.

Azərbaycan alimlərindən H.Osmanovun uzunömürlülüyün molekulyar səviyyədə araşdırılması, eləcə də M.Orucovun "Uzunömürlülüyün patologiyası", professor Nigar Kamilovanın "Aktiv uzunömürlülüyün sirləri və Azərbaycanın uzunömürlülərindən həyat keyfiyyəti dərsləri" mövzularında məruzələri konfrans iştirakçılarında maraq doğurub.

Professor N.Kamilova çıxışında uzunömürlülüyü şərtləndirən amillərdən və qeydə alınan statistikadan, eləcə də bu fenomenin qarşılaşdığı çağırışlardan danışıb. Diqqətə çatdırılıb ki, sürətli urbanizasiya, həyat tərzinin dəyişməsi, ekoloji təhlükələr ənənəvi aktiv uzunömürlülük modeli üçün yeni risklər yaradır.

Qeyd edək ki, Müşfiq Orucov, Nigar Kamilova, Hafiz Osmanov, o cümlədən Geologiya və Geofizika İnstitutunun elmi işçisi Fərəh Mahmudova "Kohort" tədqiqat layihəsinin komitə üzvləri arasında yer alırlar.

# Uşaqların Beynəlxalq Müdafiəsi Günü ilə əlaqədar silsilə tədbirlər keçirilib

## Azərbaycan Pediatrlar Assosiasiyasının təşəbbüsü ilə məktəblilərə maarifləndirici kitablar və hədiyyələr verilib

**1 İyun – Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə ölkəmizdə uşaq sağlamlığının təminatı və rifahının yüksəldilməsi məqsədilə silsilə səhiyyə tədbirləri keçirilib. Bu tədbirlər balacaların fiziki və psixoloji inkişafına dəstək olmaq, valideynləri maarifləndirmək və cəmiyyətin diqqətini bu məsələyə yönəltmək məqsədi daşıyıb.**



Tədbirlər çərçivəsində genetik, psixoloji və qidalanma faktorlarının qarşılıqlı təsiri nəticəsində yaranan, fərdin sosial ünsiyyət, davranış və idrak qabiliyyətlərində müxtəlif dərəcədə çətinliklərlə özünü büruzə verən nevroinkişaf pozuntusu, uşaq sağlamlığında qidalanmanın əhəmiyyəti və bu sahədə mütəxəssis əməkdaşlığının rolu kimi aktual mövzularla bağlı ekspert çıxışları təqdim edilib.

"Autizm spektr pozuntusu: Genetik, psixoloji və nutrisional faktorların interdisiplinar təhlili" mövzusunda elmi-praktik konfransda mütəxəssislər autizmin səbəbləri, erkən diaqnostika və müdaxilə metodları barədə təqdimatlar ediblər. Xüsusilə, autizmli uşaqlarda qidalanma məsələləri və bu sahədə aparılan araşdırmalar diqqət mərkəzində olub.

Tədbirin əsas təqdimatçılarından olan ATU-nun II Uşaq xəstəlikləri kafedrasının dosenti, Azərbaycan Pediatrlar Assosiasiyasının sədri, Avrasiya Uşaq Həkimləri Federasiyasının vitse-prezidenti, tibb üzrə fəlsəfə doktoru Təranə Tağı-zadə "Neyroinkişaf pozuntuları olan pasiyentlərin bioetik problemləri" mövzusunda çıxış edib. Alim belə pasiyentlərin tibbi müdaxilələrə razılıq vermə qabiliyyətinin qiymətləndirilməsində həkim, ailə və cəmiyyət arasında bioetik balansın qorunmasının vacibliyini vurğulayıb. Təranə xanım qeyd edib ki, neyroinkişaf pozuntusu olan uşaqların diaqnostika və müalicə prosesində onların ləyaqətinin və hüquqlarının qorunması, razılıq prosesinin şəffaf şəkildə təşkil edilməsi əsas etik prinsiplərdəndir. Xüsusi qeyd olunub ki, neyroinkişaf pozuntulu uşaqlara göstərilən tibbi xidmətlər təkcə klinik effektivlik deyil, həm də sosial ədalət, fərdi fərqliliklərə hörmət və inklüzivlik prinsipinə əsaslanmalıdır.

Tədbirdə səmərəli təcrübə mübadiləsi aparılıb, əməkdaşlıq perspektivləri dəyərləndirilib və konfransın sonunda iştirakçılara sertifikat və təşəkkürnamələr təqdim edilib.

Sonda, valideynlərinin razılığı əsasında autizm spektr pozuntusu olan uşaqların iştirakı ilə təşkil olunmuş bədii hissə təqdim olunub.



* * *

Yeni Klinikada təşkil olunan "Milli Pediatriya Məktəbi – Pediatr və nutrisioloq: Sağlam gələcək üçün güclü tandem" adlı növbəti elmi-praktik konfransda isə pediatriya və uşaq nutrisiologiyası sahəsində ən müasir yanaşmalar, aktual problemlər və effektiv həll yolları əhatəli şəkildə müzakirə edilib.

Tədbirdə ölkənin tanınmış mütəxəssisləri tərəfindən uşaq sağlamlığında qidalanmanın əhəmiyyəti, erkən müdaxilənin vacibliyi və profilaktik yanaşmalar kimi aktual mövzularda məruzələr təqdim olunub. Konfransda tibb üzrə fəlsəfə doktoru T.Tağı-zadə "Uşaq qidalanmasının müasir aspektləri: qidalanma dəstəyindən bioetik təhlükəsizliyə qədər" mövzusunda elmi biliklərə, praktiki təcrübəyə və beynəlxalq yanaşmalara əsaslanan çıxış edib. Pediatr alim qidalanmanın bütün təzahürlərində əsas faktorları sadalayıb, bunların kifayət qədər qidalanmama (arıqlama, boy artımı və çəki azlığı), vitamin və ya mineral çatışmazlığı, artıq çəki, piylənmə və bunla bağlı qeyri-infeksion xəstəliklər olduğunu bildirib.

Təranə xanım uşaqlarda erkən dövrdə düzgün qidalanmanın gələcək sağlamlıq və koqnitiv inkişaf baxımından əhəmiyyətini vurğulayaraq, Ümumdünya Səhiyyə Təşkilatının önəm verdiyi "İlk 1000 gün" strategiyasına, həmçinin ölkəmizdə tibb təhsilində bioetikanın tətbiqi kimi aktual və strateji əhəmiyyət daşıyan mövzulara toxunub.

Konfrans Səhiyyə Nazirliyi tərəfindən akkreditasiya olunub, iştirakçılar 6 DTT (davamlı tibb təhsili) balı ilə qiymətləndirilib. Tədbirin sonunda iştirakçılara rəsmi sertifikatlar verilib.

* * *

Bu silsilədən daha bir səhiyyə tədbiri "Konstitusiya və Suverenlik İli" çərçivəsində "Sənin hüququn – sənin gəncliyin!" adı ilə Sumqayıt şəhərində baş tutub.

Tədbirdə Milli Məclisin Ailə, Qadın və Uşaq Məsələləri Komitəsinin sədri Hicran Hüseynova, Azərbaycan Pediatrlar Assosiasiyasının prezidenti Təranə Tağı-zadə, deputatlar Mehriban Vəliyeva, Müşfiq Məmmədli, Günay Ağamalı, Sumqayıt Şəhər İcra Hakimiyyətinin nümayəndəsi Mehriban Nəcəfova, Abşeron-Xızı Regional Təhsil İdarəsinin Sumqayıt üzrə sektor müdiri İman Ağayev, təhsil işçiləri, valideynlər, şagirdlər, şəhid və qazi ailələrinin üzvləri iştirak ediblər.

Rəsmi hissədə çıxış edən komitə sədri Hicran Hüseynova 1 İyun – Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə uşaqları, xüsusilə də Vətən müharibəsində şəhid olmuş qəhrəmanlarımızın bizə əmanət övladlarını təbrik edib, onlara sağlam, sevgi dolu və işıqlı gələcək arzulayıb. O əhatəli və məqsədyönlü tədbirin təşkilinə verdikləri töhfəyə görə, Sumqayıt şəhər İH, APA prezidenti Təranə Tağı-zadə və Sumqayıt şəhər Məhəmməd Füzuli adına 15 nömrəli tam orta ümumtəhsil məktəbinin direktoruna təşəkkürünü bildirib.

Milli Məclisin deputatları, məktəb müəllimləri və digər natiqlər uşaq hüquqları, sosial müdafiə, sağlamlıq və təhsil sahəsində həyata keçirilən tədbirlər barədə ətraflı məlumat veriblər.

Daha sonra məktəblilər "Yaşa, Azərbaycan!", "Uzun dərə" rəqsi və "Ana Vətən" adlı ədəbi-bədii kompozisiyalarla çıxış ediblər. Tədbirin sonunda Azərbaycan Pediatrlar Assosiasiyasının təşəbbüsü ilə aztəminatlı, şəhid və qazi ailələrindən olan məktəblilərə uşaq hüquqları mövzusunda maarifləndirici kitablar və müxtəlif hədiyyələr təqdim olunub.

**Arif MƏMMƏDLİ**

# Kafedra müdiri Yunanıstanda beynəlxalq konfransa qatılıb

**Bioloji kimya kafedrasının müdiri, professor Gülnarə Əzizova 26-30 may tarixlərində Yunanıstanın Krit adasında keçirilən "Radiation Applications in Biomedicine – RAP-25" adlı beynəlxalq konfransda iştirak edib. Tədbir biotibb sahəsində radiasiya texnologiyalarının tətbiqinə dair aktual elmi və klinik problemlərin müzakirəsinə həsr olunub.**




Konfrans çərçivəsində biokimya, immunologiya və molekulyar biologiya üzrə ayrıca elmi sessiyalar təşkil edilib. G.Əzizovanın "Metabolik sindrom fonunda inkişaf edən ürək çatışmazlığı zamanı adipokinlərin rolu" adlı məruzəsi iştirakçılar tərəfindən böyük maraqla qarşılanıb. Çıxışın əvvəlində Azərbaycan Tibb Universitetinin fəaliyyəti və elmi nailiyyətləri haqqında məlumat verilib, sonra isə ölkəmizin coğrafi, mədəni və sosial-iqtisadi xüsusiyyətlərini əks etdirən qısa videomaterial təqdim olunub. RAP-25 konfransı dünyanın 45 ölkəsindən tədqiqatçı və akademiklərin iştirakı ilə keçirilib. Dörd gün ərzində çoxsaylı elmi məruzələr, poster təqdimatları və interaktiv müzakirələr baş tutub. Konfrans müddətində iştirakçılar Azərbaycan və xüsusilə universitetimizlə yaxından maraqlanıblar. Bu cür tədbirlər beynəlxalq elmi əməkdaşlığın inkişafı baxımından mühüm əhəmiyyət daşıyır və ölkəmizin akademik nüfuzuna töhfə verir.

# Qazaxıstanlı müəllimlər ATU-da akademik fəaliyyət göstərib



Mayın 26-30-da S.D.Asfendiyarov adına Qazax Milli Tibb Universitetinin Biostatistika və elmi tədqiqatın əsasları kafedrasının müdiri Aymaxanova Ayzat və tədris işləri üzrə müavini İsmailova Madina ATU-nun Epidemiologiya və biostatistika kafedrasında akademik mübadilə çərçivəsində akademik fəaliyyət göstəriblər.

Fəaliyyət zamanı əməkdaşlar mühazirələr oxuyub, kafedranın tədris proqramları ətrafında geniş müzakirələr aparıb və elmi təcrübələrini bölüşüblər.

Akademik fəaliyyətin sonunda ATU-nun Epidemiologiya və biostatistika kafedrasının müdiri, professor, əməkdar elm xadimi İbadulla Ağayev qazaxıstanlı əməkdaşlara sertifikatlar təqdim edib.

# Türkiyəli professor universitetimizin qonağı olub



Ege Universitetinin Tibb bacılığı fakültəsinin professoru Dilek Sarı beynəlxalq mübadilə proqramı çərçivəsində iki həftə müddətində universitetimizin Tibb və sağlamlıq elmləri təhsili kafedrasında akademik fəaliyyət göstərib.

Fəaliyyət zamanı professor İctimai səhiyyə fakültəsinin Tibb bacısı/qardaşı ixtisası üzrə təhsil alan tələbələrinə kafedrada tədris olunan "Tibb bacılığının əsasları-1" fənni üzrə dərslərə qatılıb, tədris proqramları ətrafında geniş müzakirələr aparıb və kafedrada təşkil olunan OSKİ imtahanının gedişini izləyib.

Universitetin Anatomiya kafedrası və muzeyi, İmtahan mərkəzi ilə tanış olan professor, kafedra əməkdaşları ilə birlikdə Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsinin yaranmasının 25 illik yubileyinə həsr olunmuş "Hərbi təbabətin aktual problemləri-2025" konfransında da iştirak edib.

# Əməkdaşımız Türkiyədə keçirilən konqresdə çıxış edib




22-25 may tarixlərində Türkiyənin Antalya şəhərində "Obezite haftası" adlı beynəlxalq konqres keçirilib. Konqresdə I Cərrahi xəstəliklər kafedrasının dosenti, t.ü.f.d Taryel Ömərov da iştirak edib.

Tədbirdə moderator və spiker qismində iştirak edən mütəxəssis, ölkəmizdə bariatrik-metabolik cərrahiyyənin uğurları haqqında məlumat verib. T.Ömərov, həmçinin təkrar mədəkiçiltmə əməliyyatlarından bəhs edib. O, çıxışında Azərbaycan, Türkiyə və türkdilli xalqların bariatrik cəmiyyətləri arasında dostluq əlaqələrinin əhəmiyyətindən də söz açıb: "TOSS, TOCV, IFSO, TCD, MBCD və piylənmə cərrahiyyəsi ilə əlaqəli olan bütün dərnəklərin iştirakı ilə baş tutan bu konqresdə elmi-təşkilatı komitə üzvü olaraq yer aldıq. 2 panel idarəçiliyi, 1 açılış çıxışı, 1 elmi çıxış və yeni faydalı görüşlərlə tədbiri başa vurduq".

# Dəqiq müayinə uğurlu müalicənin əsas şərtidir

## Tədris Onkoloji Klinikada müasir avadanlıqları peşəkarlar idarə edir

**Azərbaycan Tibb Universitetinin digər klinikalarında olduğu kimi, Tədris Onkoloji Klinikaya da müraciət edən pasiyentlər müasir diaqnostik cihazların sayəsində dəqiq müayinə olunurlar. Məhz düzgün müayinənin nəticəsində klinikanın həkimləri xəstələri uyğun şəkildə müalicə edir, onlara sağlamlıq durumlarının bərpasında yardımçı olurlar.**

Xəstələrin hansı müayinələrdən keçdiyi və bu prosesin necə aparılması ilə bağlı ətraflı məlumat əldə etmək üçün Klinikada olduq. **Klinik-Diaqnostik Laboratoriyanın müdiri Taleh Əliyev** bizə



rəhbərlik etdiyi laboratoriyanın fəaliyyətindən danışdı. Bildirdi ki, laboratoriya ən müasir avadanlıqlarla təchiz olunub: “Laboratoriyamızın bütün bölmələri fəaliyyət göstərir. Burada tam balanslaşdırılmış sistemdən istifadə edirik. Biokimyəvi, qanın ümumi analizi bölümləri tam avtomatlaşdırılmış şəkildə fəaliyyət göstərir. Apardığımız müayinələr LİS proqramına bağlı olduğu üçün müayinənin nəticələrini həkimlər öz otaqlarında görmək imkanına malikdir. Tibbin başqa sahələrində olduğu kimi, onkoloji sahədə də müayinələr daim yenilənir. Biz də bu yeniliklərdən istifadə edirik. Bu da həkimlərimizə ilkin və erkən müayinələrin, biokimyəvi müalicənin aparılmasını yaxından izləməyə imkan verir”.

**Həkim-laborant, tibb üzrə fəlsəfə doktoru Ülkər Məmmədovanın** bildirdiyinə görə, biokimyəvi



analizlər Almaniya istehsalı olan “İnteqra-400” cihazı vasitəsilə aparılır: “Cihazın bir sıra üstünlükləri var, müayinələrin aparılmasında bizə vaxt qazandırır. Belə ki, bir saat ərzində 400 nəfərin müayinə göstəriciləri barədə məlumat əldə edə bilirik. Onun sayəsində qaraciyər, böyrək, mədəaltı vəzi və s. orqanların göstəricilərini, şəkər miqdarını öyrənmək mümkündür. Müasir avadanlıqların imkanları müayinələri 5-10 dəqiqə ərzində və dəqiqliklə həyata keçirməyə imkan verir”.

**Qeydiyyatçı Arifə Mirzəyeva**



çalışdığı laboratoriyada hər gün xəstələrin müayinədən keçmək üçün onlara müraciət etdiyini qeyd etdi. Bildirdi ki, həkim xəstələri qeydiyyata alandan sonra ad və soyadlarla barkodlar çıxarır, nümunə götürür, sonra iş otağına yönləndirirlər.





**Mammoqrafiya müayinəsi kabinetinin radioloq-mammoqrafı Könül Fərhadzadənin** sözlərinə



görə, 2024-cü ildən etibarən işlədiyi kabinetdə mammoqrafiyadan əlavə tomosintezə də başlanılıb: “Tomosintez süd vəzinin tomoqrafiya müayinəsidir. Biz mammoqrafiya zamanı rentgen müayinəsi aparır, şəkil çəkirik, tomosintez zamanı isə bir millimetr nazikliyində süd vəzi toxumasından 50-70 arası şəkillər əldə edə bilirik. Bu da bizə kiçik ölçülü, çətin aşkarlanan toxumaları müəyyənləşdirməkdə kömək edir.

Klinikamız universitetin nəzdində olduğu üçün bura Onkologiya kafedrasından tələbələr də gəlir. Biz isə onlara mammoqrafiyanı praktik olaraq izah edir, xəstələri göstərir, onlar üzərində dərslər keçirik”.

K.Fərhadzadə söhbət zamanı klinikada Mammologiya şöbəsinin fəaliyyət göstərdiyini də bildirdi: “Şöbəmizdə 15-ə yaxın cərrah-mammaloq çalışır. Gün ərzində onlara müraciət edən xəstələr mütləq şəkildə mammoqrafiya və ultrasəs müayinəsinə yönləndirilir. Xəstəyə kağız və disk şəklində müayinələrin nəticələri verilir. Müayinələr təsdiq olunandan sonra xəstələr öz mammoloqlarına dönür”.

**Klinikanın Endoskopiya kabinetinin həkimi Habil Hüseynov**



burada bütün endoskopik müayinələrin - artoskopiya, kolonoskopiya, larinqoskopiya, broxoskopiya və s. aparıldığını bildirdi: “Mədənin, nazik bağırsağın stendlənməsi, poliplərin kəsilməsi, darlıqların genişləndirilməsi, fistulaların bağlanması, bronxlardan, mədə-bağırsaq sistemindən yad cisimlərin xaric edilməsi həkimlərimiz tərəfindən yüksək səviyyədə icra olunur. İstər onkoloji, istər qeyri-onkoloji olsun, mədə-bağırsaq sistemində problemi olan hər kəs, o cümlədən cərrahi şansı olmayanlar, digər müayinə və müalicə metodlarından ümidini itirmiş xəstələr bizə müraciət edirlər. Məsələn, şiş elə bir həddə çatır ki, qidalanmada problem yaşayırlar və digər üsullarla müdaxilə etmək heç cür mümkün olmur. Xəstələrə ya stend, ya da feyk taxılır, həkimlərimizin səyi nəticəsində yenidən həyata qayıdırlar”.

**Qabil ABDULLAYEV**



# Psixi sağlamlıq fiziki sağlamlıq qədər önəmlidir

## Nərmin Quliyeva: Bipolyar pozuntuya stresli hadisələr, travmalar, uzunmüddətli yuxusuzluq, ayrılıqlar səbəb ola bilər

**Heç kəsə sirr deyil ki, tibbin bütün sahələri insan sağlamlığının qorunmasına və bu sağlamlıq müxtəlif səbəblərdən itirildikdə, onun bərpasına xidmət edir. O da məlumdur ki, insanın sağlıq durumuna mənfi təsir göstərən əsas faktorlardan biri də psixi pozuntular, o cümlədən bipolyar pozuntudur.**

Bipolyar pozuntunun anlamı, necə və nədən yarana bilməsi, risk faktorları, müayinə və müalicəsi haqqında suallarımızı cavablandıran ATU-nun Psixiatriya kafedrasının tədris işləri üzrə müavini, assistent Nərmin Quliyeva bildirib ki, bəzən özümüzü çox enerjili və xoşbəxt, bəzən isə çox halsız və ümidsiz hiss edirik. Bu, həyatın normal halıdır. Amma bu hal çox kəskin, çox uzun sürürsə və gündəlik həyatımıza mane olursa, sadəcə “əvvəlki kimi deyiləm” yox, artıq bipolyar pozuntu ola bilər: “Bipolyar pozuntuya dünyada hər 100 nəfərin təxminən 2-3-də rast gəlinir. Yəni milyonlarla insan bu halı yaşayır və çoxu öz həyatını normal şəkildə davam etdirə bilir. Adətən gənclik illərində başlayır, amma daha erkən və ya daha gec yaşda da ortaya çıxa bilər. Bu pozuntunun dəqiq səbəbi məlum olmasa da, genetik meyl, beyindəki kimyəvi tarazlığın pozulması, stresli hadisələr, travmalar, ayrılıqlar, uzunmüddətli yuxusuzluq və ya zərərli maddə istifadəsi (alkoqol, narkotik) risk faktorlarıdır. Ailədə bu pozuntunun və ya digər emosional-psixiatrik xəstəliklərin olması riskin artmasına səbəb ola bilər. Travmatik uşaq təcrübələri, valideyn ayrılığı, zorakılıq və ya laqeydlik kimi erkən yaşlarda yaşanan psixoloji zədələr də emosional sabitliyin pozulmasına zəmin yaradır.

Erkən yaşda (18 yaşına qədər) marixuana və digər psixoaktiv maddələrin istifadəsi beynin inkişaf mərhələsində kimyəvi tarazlığa təsir edərək bipolyar simptomların daha erkən və daha ağır şəkildə ortaya çıxmasına səbəb ola bilər. Maddə istifadəsi təkcə xəstəliyi tətikləmir, həm də mövcud əlamətləri kəskinləşdirir və müalicəni çətinləşdirir. Bundan əlavə, xroniki stress, yuxu pozuntuları və sosial təcrid kimi amillər də bu pozuntuya meylliliyi artırır. Yeniyetmələr və gənclər arasında psixoloji maarifləndirmə və erkən dəstək bu risk faktorlarının qarşısını almaqda vacib rol oynayır”.

Mütəxəssis təkcə əhval-ruhiyyəyə yox, həmçinin insanın gündəlik həyatına, ailəsinə, sosial münasibətlərinə, maliyyə vəziyyətinə və sağlamlığına ciddi təsir edən bipolyar pozuntunun işdə və ya məktəbdə də çətinliklər yaratdığını deyib: “Maniya mərhələsində insan çox enerjili olur, özünü “dahi” və ya “məğlubedilməz” hiss edir. Həmçinin planlaşdırmadan böyük məbləğdə pul xərcləyir, hətta borca girir. O qədər planlar qurur ki, sonradan heç birini bitirə bilmir. İş yoldaşlarını bezdirir, dərslərdə diqqəti yayınır. Məsələn, məşhur rəssam Van Qoqun əsərlərində maniyanın izləri aydın görünür. O, qısa müddətdə yüzlərlə şəkil çəkirdi, amma sonra depressiyaya düşəndə yaradıcılığı dayanırdı. Depressiya dövründə isə insan yorğun, ümidsiz olur, yataqdan qalxmaq istəmir, işə və ya məktəbə getməkdən imtina edir. Kiçik tapşırıqları belə yerinə yetirməkdə çətinlik çəkir. Yuxu problemləri də özünü büruzə verir”.

Bipolyar pozuntudan əziyyət çəkən şəxslərdə özünə zərərvermə və intihar riskinin depressiya mərhələsində daha yüksək olduğunu söyləyən həkim-psixiatr qeyd edib ki, həmin insanlar ümidsizlik, günahkarlıq hissləri yaşayır, həyatlarının mənasız olduğunu düşünə bilirlər. Buna görə də yaxınları çox diqqətli olmalıdır: “Bununla belə, bipolyar pozuntu müalicə olunur və nəzarət altına alınır. Doğru müalicə və dəstəklə insanlar tam normal, sağlam və dolğun həyat yaşayırlar. Bipolyar pozuntunun müalicəsində dərman müalicəsi ilə yanaşı, psixoterapiya çox vacib rol oynayır. Araşdırmalar göstərir ki, psixoterapiya relapsların (xəstəliyin təkrar başlaması) qarşısını alır, xəstənin funksional vəziyyətini yaxşılaşdırır və ailə münasibətlərini möhkəmləndirir”.

Həkimin sözlərinə görə, xəstənin və ailənin xəstəlik barədə məlumatlandırılması, neqativ düşüncə və davranışların dəyişdirilməsi, gündəlik həyat ritmini bərpa etmək də ən mühüm amillərdəndir: “Transkranial maqnit stimulyasiya (TMS) isə beynə zəif maqnit impulsları göndərərək neyron fəaliyyətini dəyişən müasir bir terapiyadır. Bu terapiya depressiv əlamətləri azaldır, prefrontal korteksin aktivliyini artırır və beynin “mükafat sistemi”ni tənzimləyir. Araşdırmalar TMS-in daha çox depressiya mərhələsində effektiv olduğunu, amma mani mərhələsində ehtiyatla istifadə edildiyini göstərir”.

N.Quliyeva sağlam həyat rejiminin (yuxu rejimi, fiziki aktivlik, stresin azaldılması) və mütəmadi psixiatr nəzarətinin zəruriliyinə də toxunub. Eyni zamanda müasir MRT (maqnit-rezonans tomoqrafiya) araşdırmalarının nəticələrinə istinad edərək bildirib ki, dərman və psixoterapiya kombinasiyası beyin həcmini (xüsusilə amigdala, hipokampus və prefrontal korteks bölgələrində) qoruyur: “Müalicə edilməyən bipolyar xəstələrin beyinlərinin həmin bölgələrində isə həcm itkisi müşahidə olunur. Bundan əlavə, Litium müalicəsi beynin boz maddəsini artırır, bu da nevroprotektiv (beyin qoruyucu) təsir kimi qiymətləndirilir. Başqa sözlə, düzgün müalicə təkcə əlamətləri yaxşılaşdırmır, həm də beyin strukturlarını qoruyur. Psixi sağlamlıq fiziki sağlamlıq qədər önəmlidir”.

Sonda həkim oxuculara üz tutub: “Əgər sən və ya yaxınların bipolyar pozuntunun əlamətlərini hiss edirsinizsə, bu barədə danışmaqdan çəkinməyin. Yardım istəmək güclü olmaq deməkdir. Erkən müdaxilə, düzgün dəstək və anlayış sağlam gələcək üçün ən yaxşı başlanğıcdır”.

# Hamiləlik dövründə qaraciyər xəstəlikləri rezidentlər üçün şərh edilib





**Tədris Cərrahiyyə Klinikasında Rezidentura və magistratura şöbəsi və II Mamalıq və ginekologiya kafedrasının təşkilatçılığı ilə rezidentlər üçün "Hamiləlik dövründə qaraciyər xəstəliklərinə sistemli yanaşma" mövzusunda seminar keçirilib.**

Seminara moderatorluq edən Rezidentura və magistratura şöbəsinin müdir müavini, assistent Namiq Xəlilov tədbir iştirakçılarını salamlayaraq klinikanın Mamalıq və ginekologiya şöbəsinin xəstələrə yüksək səviyyədə tibbi xidmət göstərməklə yanaşı, həm də universitetdə yüksək ixtisaslı kadrların hazırlanması işini həyata keçirdiyini deyib. O, hamiləlik dövründə qaraciyər xəstəliklərinin aşkar olunmasının klinik əhəmiyyətindən danışaraq, bu xəstəliklərə sistemli yanaşmaya dair məruzənin rezidentlər üçün faydalı olacağına əminliyini vurğulayıb. Kafedranın müdiri, professor Hicran Bağırova mövzunun aktuallığına diqqət çəkərək bildirib ki, hamiləlik dövründə qaraciyər xəstəliyi hamiləliyin gedişatına təsir göstərərək, preeklampsiya, vaxtından əvvəl doğuş və perinatal ölüm kimi mamalıq ağırlaşmaları riskini artırır: "Xüsusən, ağır preeklampsiya, hamiləliyin kəskin yağlı qaraciyəri (AFLP) hamilə qadınlarda "kəskin qarın" sindromuna səbəb ola bilər. AFLP qarın ağrısı, ürəkbulanma, qusma və sarılıq kimi simptomlarla özünü göstərir və qaraciyər çatışmazlığı, poliorqan çatışmazlığı və hətta ölümlə nəticələnə bilər".

Kafedranın dosenti, tibb elmləri doktoru Ellada Sarıyeva tərəfindən hazırlanmış məruzədə hamiləlik dövründə qaraciyər xəstəliklərinin aktuallığı, diaqnostikası, klinik təcrübədə rast gəlinən hamiləlik ağırlaşmaları olan preeklampsiya, intrahepatik xolestaz, HELLP sindromu və digər patologiyalarda yanaşma prinsipləri öz əksini tapıb. O, hamilələrdə ən çox rast gəlinən və xroniki hepatit, fibroza səbəb olan B, C virus hepatitlərinin diaqnostikası, ana və döl fəsadlarından söhbət açaraq qeyd edib ki, doktorluq üzrə apardığı elmi-tədqiqat işi məhz B, C virus hepatitlərinə həsr olunub.

Məruzəçi son 10 il ərzində respublikamızda infeksion hepatit səbəbindən baş verən ana ölümünə aid klinik hadisəni, həmçinin xarici ölkələrdə hamiləliyin kəskin piyli qaraciyəri səbəbindən baş verən ana ölümü hadisəsini təhlil edib. Göstərilən ciddi qaraciyər patologiyalarında klinik, biokimyəvi analizlərin şərhi seminarda iştirak edən ATU TCK-nın laboratoriya həkimlərinin və rezidentlərinin marağına səbəb olub. Təqdim olunan mövzu ilə bağlı ultrasəs, MRT, KT nəticələri Radiologiya şöbəsinin rezidentləri, eləcə də klinikanın ultrasəs həkimləri üçün əhəmiyyətli idi.

Seminarın sonunda mövzu ətrafında aktiv müzakirələr aparılıb. Dosent Səfa Bağırova seminarın təkcə rezident-həkimlər üçün deyil, kafedranın əməkdaşları üçün də nəzəri və praktik əhəmiyyətini diqqətə çatdırıb.

Məruzəçi tərəfindən hamiləlik zamanı qaraciyər xəstəliklərinin diaqnostikasına aid differensial cədvəlin təqdimatı da maraqla qarşılanıb.

**Bu günlərdə Tibbi və bioloji fizika kafedrasının müdiri, dosent İsmayıl Qafarovun 60 yaşı tamam olur. 1965-ci ildə dünyaya göz açan İ.Qafarov orta məktəb illərində dəfələrlə fizika və riyaziyyat fənləri üzrə respublika və ümumittifaq olimpiadalarının iştirakçısı və qalibi olub.**

# Riyaziyyatla tibb arasında körpü quran alim



Orta məktəbi qızıl medalla bitirdikdən sonra Lomonosov adına Moskva Dövlət Universitetinə qəbul olub. Sonradan ailə vəziyyətinə görə təhsilini Azərbaycan Dövlət Universitetində davam etdirib.

Tələbəlik illərindən iş təcrübəsinə Kibernetika İnstitutunda texnik kimi başlayan İsmayıl müəllim, universiteti bitirdikdən sonra, 1990-cı ildə Azərbaycan Tibb İnstitutunun Fizika kafedrasının nəzdində yenicə təşkil edilmiş İnformatika və HT kursuna mühəndis-proqramlaşdırıcı təyin olunub. 1994-cü ildə kafedranın assistenti, sonrakı illərdə baş müəllim, dosent və nəhayət, kafedra müdiri vəzifələrinə seçilib.

Azərbaycan Tibb Universitetində işlədiyi müddətdə müxtəlif bioloji obyektlərin riyazi modellərinin qurulmasını və onların tətbiqini reallaşdırıb. Kafedralararası elmi işlər çərçivəsində öyrənilən bioloji proseslərin statistik analizi üçün xüsusi paket proqramlar, e-kalkulyatorlar hazırlayıb. Bu proqramlar hazırda da tədrisdə və tibbi praktikada tətbiq olunur.

İ.Qafarov 2005-ci ildə «Obyektləri hərəkətdə olan mürəkkəb sistemlərin stoxastik modelləşdirilməsi» mövzusunda namizədlik dissertasiyasını müdafiə edib, 2018-ci ildə isə riyazi modelləşdirmə, ədədi üsullar və proqram kompleksləri ixtisasları üzrə fizika-riyaziyyat elmləri namizədi elmi dərəcəsini alıb.

2012-ci ildən Dövlət İmtahan Mərkəzində «İnformatika» fənni üzrə seminarın üzvü, 2018-ci ildən isə rəhbəri olan İ.Qafarov ATU-da və həmçinin dəvət ilə digər universitetlərdə (BDU, Xəzər Universiteti, ABTA və s.) doktorant və dissertantlar üçün "elmi tədqiqatların aparılması və nəticələrin statistik analizi" mövzusunda mühazirələr aparır və treninqlər təşkil edir.

Beynəlxalq sitatlar bazasına daxil edilmiş (Web of Science, Scopus, PubMed, EBSCO, Ulrichs Periodicals Directory, РИНЦ) jurnallar da daxil olmaqla, bir çox elmi nəşrlərdə 90-dan çox elmi məqaləsi dərc olunub, həmçinin 5 səmərələşdirici təklif, 4 müəlliflik şəhadətnaməsi, 2 proqram, 1 beynəlxalq ixtira və 4 tədris vəsaitinin müəllifidir.

Daim öz üzərində işləyən, gənc nəslə diqqətlə yanaşan, həm özünə, həm də ətrafdakılara qarşı tələbkar, eyni zamanda qayğıkeş münasibət göstərən İsmayıl müəllimi yubileyi münasibəti ilə ürəkdən təbrik edir, yeni-yeni uğurlar arzulayırıq.

**Tibbi və bioloji fizika kafedrasının kollektivi**

# Əməkdaşımız EGE Universitetində dərs keçib




Ümumi cərrahlıq kafedrasının dosenti, tibb elmlər doktoru Elman Tağısoy Türk Dövlətləri Təşkilatı Türk Universitetləri Birliyinin "Orhun" mübadilə proqramı çərçivəsində Türkiyənin EGE Universitetinin Tibb fakültəsində 15 gün ərzində akademik fəaliyyət göstərib.

O, universitetin Genel cərrahi kafedrasında müəllim və tələbələrlə görüşüb. III, IV kurs tələbələrinə və uzmanlara yanıqlar, kəskin qarın və döş boşluğunun küt və açıq yaralanmaları, cərrahi infeksiya, anorektal abses və süzgəclər mövzularında mühazirələr oxuyub. Səfər çərçivəsində əməkdaşımız universitetin tədris fəaliyyəti ilə yaxından tanış olub və həmin dövrdə orda keçirilən beynəlxalq konqresdə iştirak edib.

# Bağırsaq infeksiyalarından qorunmağın sadə və vacib şərtləri

## Bu infeksiyaların səbəb olduğu ən ağır nəticələrdən biri orqanizmin susuzlaşmasıdır



**Çoxsaylı yoluxucu xəstəliklər arasında bağırsaq infeksiyaları mühüm yer tutur. Demək olar ki, hər bir insan həyatı boyu bu xəstəliklərə tutulur. Dünya Səhiyyə Təşkilatının məlumatına görə, hər gün böyüklər və uşaqlar arasında 275 milyon diareyalı xəstəliklər qeydə alınır. Bunların çoxu 2-6 yaşında uşaqlar olur.**

Hər il bu səbəbdən 600 mindən 1,5 milyona kimi insan ölür ki, bunun da 2/3 hissəsini uşaqlar təşkil edir. Bu xəstəliklərin sayı 30-dan çoxdur və əsasən həzm traktı zədələnir. Bağırsaq infeksiyalarının törədiciləri bakteriyalar (salmonellyoz qarın yatalağı, vəba və s.), bakteriyaların toksinləri (botulizm, stafilakokk toksinləri), viruslar (rotavirus, noravirus), protozoolar (amöbiaz, lambilyoz) ola bilər.

Bu xəstəliklərin törədiciləri xəstələrdən və infeksiya daşıyıcılarından nəcislə, qusuntu kütləsi və bəzən də sidiklə ətraf mühitə yayılır. Bu törədicilərin əksəriyyəti əlahiddə mövcud olma qabiliyyətinə malikdir. Uzun müddət torpaqda, suda, müxtəlif əşyalarda (qaşıqlar, qapı və mebel dəstəkləri və s.) qala bilirlər. Soyuqdan qorxmasalar da, nəm və isti yerlər onlar üçün daha əlverişlidir. Xüsusilə yay mövsümündə süd məhsullarında, ət qiyməsində, həmçinin suda sürətlə çoxalırlar.

Xəstəlik hər yerdə və bütün mövsümlərdə qeydə alınsa da, ən çox yay mövsümündə baş verir. Bağırsaq infeksiyasının törədiciləri insan orqanizminə ərzaq, su və ya çirkli əllərdən ağız yolu ilə daxil olur. Qaynadılmamış süd içərək dizenteriyaya, kremli tort yeməklə stafilakokk infeksiysına və toksininə, toyuq əti, toyuq yumurtası yeməklə salmonella infeksiyasına, qaynadılmamış su içməklə lambliya infeksiyasına yoluxmaq olar.

Mikroblar ağızdan mədəyə, sonra bağırsaqlara keçərək sürətlə çoxalır. Mikrobun orqanizmə düşdükdən 6-48 saata qədər əlamətsiz inkişaf dövrü olur. Xəstəliyin başlanğıcında kəskin respirator xəstəliyi xatırladan zəiflik, halsızlıq, iştahın azalması, bədən hərarətinin yüksəlməsi kimi əlamətlər olur. Bunlardan bir qədər sonra ürək bulanması baş verir, qarında tutmaşəkilli ağrılar, selik, irin, ya da qan qarışıqlı ishal müşahidə oluna bilər. Susuzluq, üşütmə də mümkündür. Eləcə də xəstəliyin simptomlarını mikrobun toksinlərinin orqanizmə mikrobsuz daxil olması da yarada bilər.

Bağırsaq infeksiyaları özünü kəskin qastrit (qusma, epiqastral nahiyədə ağrı), enterit (ishal), qastroenterit (qusma, ishal), kolit (nəcisdə qan, defekasiya aktında gücənmə), qastroenterokolit kimi göstərə bilər. Bağırsaq infeksiyalarının ən ağır nəticələrindən biri qusma və ya ishal nəticəsində orqanizmin susuzlaşmasıdır (dehidratasiya). Dehidratasiya kəskin böyrək çatışmazlığına, dehidratasion şoka kimi irəliləyə bilər.

Bağırsaq infeksiyalarını oxşar simptomlu digər xəstəliklərdən – qeyri-bakterial qida zəhərlənmələri (göbələk zəhərlənməsi), kəskin apendisit, miokard infarktı, pnevmoniya, uşaqlıqdan kənar boru hamiləliyindən fərqləndirmək lazımdır. Nəcis, qusuntu materialı, qida qalığının bakterioloji, toksikoloji müayinəsi aparılmalıdır. İnfeksiyanı aşkar etmək üçün polimeraz zəncir reaksiyasından istifadə edilə bilər.



Seroloji reaksiyaların nəticəsi retrospektiv xarakter daşıyır. Bağırsaq infeksiyalarının müalicəsi mikrobun özünə, onun toksininə və dehidratasiyaya qarşı kompleks şəkildə aparılmalıdır. Bundan başqa, xəstələr pəhrizə əməl etməlidir və bağırsaq florası bərpa olunmalıdır. Xəstəliyə tutulmaq riskini azaltmaq üçün su qaynadılmış halda içilməlidir. Nəzərə almaq lazımdır ki, evlərə verilən içməli sudakı xlor qarışığı lambliya ilə yoluxmanın qarşısını ala bilməz. Tərkibində salmonella olan qidanın rəngi, qoxusu, tamı dəyişmədiyindən xüsusilə təhlükəlidir. Yumurta soyuducuda 1 ay qalarsa, salmonella mikrobları yumurta qabığından yumurtanın daxilinə - ağına və sarısına keçə bilir. Bundan əlavə, toyuq yumurtası salmonella ilə transoverial da yoluxa bilər. Buna görə də yumurta qaynadılaraq bişirilməlidir. Ərzaqları qablaşdırdıqda, onların təmasına yol verməmk olmaz. Tərəvəz, meyvə axar su altında yuyulmalıdır. Yaxşı olar ki su qaynadılmış olsun. Yararlılıq müddəti bitmiş, istehsalçısı bilinməyən və şübhə doğuran qidalardan uzaq durmaq lazımdır.

Unutmayaq ki, ilk növbədə qida qəbulundan əvvəl əllər yuyulmalıdır. Bu sadə qaydalara əməl etməklə, özümüzü və ətrafdakıları bağırsaq infeksiyalarından xeyli dərəcədə qoruya bilərik.

**Vahid QƏMBƏR,**
*III Daxili xəstəliklər kafedrasının dosenti*

# Müstəqillik Gününə həsr olunmuş stolüstü tennis turniri keçirilib

**Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi ilə ATU-nun "Təbib" Tədris İdman Mərkəzinin birgə təşkilatçılığı ilə Azərbaycan Tibb Universitetinin əcnəbi tələbələri arasında 28 May – Müstəqillik Gününə həsr olunmuş stolüstü tennis turniri keçirilib.**




Tədris İdman Mərkəzində baş tutan turnirdə Türkiyə, İran, Hindistan, Suriya, Fələstin, Zambiya, Sudan, Rusiya Federasiyası, Keniya, Mərakeş, Mali, Pakistan və Qazaxıstandan olan 12 qız və 39 oğlan tələbə iştirak edib. Açılış mərasimində Dövlət Himni səsləndirildikdən sonra "Təbib" Tədris İdman Mərkəzinin müdiri Qələndər Aslanov tələbələrə uğurlar arzulayıb. O, belə yarışların sessiya qabağı tələbələrin motivasiyasının yüksəldilməsində böyük əhəmiyyət daşıdığını vurğulayıb.

Sonra yarışın baş hakimi Yaroslava Ağaməliyeva turnirə start verib. Qarışıq sistem üzrə (Olimpiya və dairəvi) gərgin və maraqlı mübarizə şəraitində keçirilən yarışın sonunda qaliblər müəyyənləşib. Qızlar arasında Aktaş Zeyneb I, Nadeem Amina II, Alena Abraham III, oğlanlar arasında isə Seyedalı Mirhaşemi I, İbrahim Nabeel II, Kaplan Barış III yerə layiq görülüb.

Təltifolma mərasimində Əcnəbi təhsilalanlarla iş üzrə dekanlığın müdiri, dosent Natiq Bayramov, Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin baş məsləhətçisi Sirac Axundov və "Təbib"in müdiri Qələndər Aslanov çıxış edərək universitetdə əcnəbi tələbələrə göstərilən diqqət və qayğıdan danışıb, onlara gələcəkdə təhsil və idman sahəsində uğurlar arzulayıblar. Sonda qaliblər diplom, medal və kuboklarla, aktiv tələbələr isə xüsusi sertifikatlarla təltif olunub.

# Tələbələrimiz qaçış yarışında fərqlənib

**İyunun 1-də Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının üzv təşkilatı Səhiyyə İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin təşkilatçılığı ilə səhiyyə işçiləri arasında növbəti genişmiqyaslı qaçış yarışı keçirilib.**




Xatırladaq ki, "Sağlamlığa Doğru Qaç!" layihəsi 17 iyun – Tibb işçilərinin peşə bayramına həsr olunaraq, ölkəmizin tibb işçiləri arasında sağlam həyat tərzinin təbliği, fiziki aktivliyin artırılması, asudə vaxtın səmərəli təşkili, həmkarlar arasında birlik və həmrəyliyin gücləndirilməsi məqsədi daşıyır.

Tədbirdə Azərbaycan Səhiyyə İşçiləri Həmkarlar İttifaqının tabeliyində fəaliyyət göstərən Bakı, Sumqayıt, Abşeron, Şuşa və Zəngilan rayonundan olan 70-ə yaxın tibb müəssisəsindən 500 nəfərə yaxın səhiyyə işçisi, o cümlədən Azərbaycan Tibb Universiteti, 1 və 2 nömrəli Bakı Tibb və Sumqayıt Tibb kolleclərində təhsil alan tələbələr iştirak ediblər.

Kişilər arasında ATU-nun tələbələri Vüsal Seyidov I, Toğrul Abdullayev II yeri tutublar. Qadınlar arasında tələbəmiz Mehsa Palar I yeri qazanıb. Qaliblər diplom, medal və müxtəlif hədiyyələrlə mükafatlandırılmaqla yanaşı, Xankəndi şəhərində keçiriləcək final mərhələsində iştirak etmək hüququ qazanıblar.



# V.O.I.S. klubu gələcək həkimlər üçün seminar təşkil edib

**Tələbə Həmkarlar İttifaqı Komitəsinin nəzdində fəaliyyət göstərən V.O.I.S. (Xarici tələbələrin səsi) klubu gələcək həkimlər üçün EKQ üzrə maraqlı seminar təşkil edib.**

Tədris Cərrahiyyə Klinikasının kardioloqu, Azərbaycan Kardiologiya Cəmiyyətinin vitse-prezidenti, t.e.d. Yasmin Rüstəmova tədbirdə çıxış edərək, hər bir cəmiyyətin inkişafı üçün sağlam əhalinin vacibliyini və bu sağlamlığın qorunmasında tibb işçilərinin rolunun əvəzsiz olduğunu qeyd edib.

Tədbirin davamında, tələbələr arasında kahoot oyunu keçirilib. Oyunun nəticələrinə əsasən, I yerə Banah Alras, II yerə Saud Alabrahim, III yerə isə Samreen layiq görülüblər.

Qeyd edək ki, V.O.I.S. klubu mütəmadi olaraq universitetin xarici tələbələri üçün təhsil, idman, mədəniyyət və digər mövzularda tədbirlər təşkil edir.

# Rezidentimiz beynəlxalq konqresdə sertifikatla təltif olunub

18-22 may tarixlərində Belçikanın Brüssel şəhərində EUROMEDLAB 2025 - 26th IFCC-EFLM Congress of Clinical Chemistry and Laboratory Medicine (Klinik kimya və laborator tibb konqresi) adlı tədbir keçirilib. Beynəlxalq konqresdə universitetimizi "Professor Vik Blaton" təqaüdünə layiq görülən AZKLMİB üzvü, həkim-rezident, mikrobioloq Ayşən Həsənova təmsil edib.

"Sistemik Lupus Eritematozus: klinik təcrübi halda diaqnostikasının gözdən keçirilməsi" mövzusunda maraqlı poster təqdim edən A.Həsənova EFLM prezidenti Mario Plebani tərəfindən xüsusi sertifikatla təltif olunub.





**ATU-nun İctimai fənlər kafedrasının baş müəllimi, kafedranın tədris hissə müdiri Akimova Şahnabat Akim qızının 80 yaşı tamam oldu. Uzun və keşməkeşli həyat yolu keçmiş Şahnabat xanımın bütün fəaliyyəti Tibb Universiteti ilə bağlıdır.**

# İqtisadi düşüncənin tibb ocağındakı fədakar nümayəndəsi

Ş.Akimova 1945-ci il iyun ayının 2-də Xaçmaz rayonunda anadan olub. 1967-ci ildə D.Bünyadzadə adına Xalq Təsərrüfatı İnstitutunu bitirib. 1961-ci ildən Azərbaycan Tibb İnstitutunun "Siyasi iqtisad" kafedrasında əmək fəaliyyətinə başlayıb. Ş.Akimova uzun illər boyu universitetimizdə iqtisadiyyat fənnini tədris edərək, tibb tələbələrinə yalnız iqtisadi nəzəriyyənin əsaslarını deyil, həm də real həyatda idarəetmə prinsiplərini, etik dəyərləri öyrədib, onların geniş dünyagörüşünün formalaşmasına töhfə verib. Kafedramızın tədris hissə müdiri kimi dərs prosesinin metodik cəhətdən yüksək səviyyədə təşkil olunmasında böyük işlər görüb.

Ş.Akimova uzun illər Tələbə Elmi Cəmiyyətinin xətti ilə istedadlı və fəal tələblərin aşkarlanıb üzə çıxarılması, onların bu istiqamətdə fəaliyyət göstərməsində böyük əmək sərf edib. Əməksevər pedaqoqumuz universitetdən kənarda gənclərin formalaşmasına yönəlmiş layihələrə qoşularaq, ATU-nun tələbələrinin müxtəlif yarışlara qatılmasını təşkil edib. Bu layihələrdən biri universitetimizə şöhrət gətirən, tələbələrimizə birincilik qazandıran SİFE (Tələbələr Azad Sahibkarlıq Fəaliyyətində) yarışması olub. 2007-2012-ci illərdə ATU-nun komandası respublikanın ali məktəbləri arasında keçirilən milli mərhələdə qalib gəlib və həmin illərdə ABŞ-nin Nyu-York və Vaşinqton şəhərlərində keçirilən dünya çempionatlarında Azərbaycanı uğurla təmsil edib. Şahnabat xanım uzun illər ərzində pedaqoji fəaliyyəti, iş mühiti və ictimai həyatda təvazökarlığı, səbr və fədakarlığı, xoş və mülayim rəftarı ilə hər kəsin rəğbətini qazanıb. Onun işıqlı ömür yolu Azərbaycan ziyalı simasının parlaq nümunələrindən biridir.

Yubileyi münasibətilə əziz və hörmətli Şahnabat xanımı təbrik edir, ona möhkəm cansağlığı, pedaqoji fəaliyyətində yeni-yeni uğurlar arzulayırıq.

**İctimai fənlər kafedrasının əməkdaşları**

### Etibarsız sayılır

II Müalicə-profilaktika fakültəsinin tələbəsi Sedat Dinçin müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

### Allah rəhmət eləsin!

İctimai fənlər kafedrasının əməkdaşları kafedranın tədris hissə müdiri, baş müəllim Şahnabat xanıma həyat yoldaşı **Qəhrəman müəllimin** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bioloji kimya kafedrasının əməkdaşları kafedranın baş laborantı Mehriban Ağayevaya qardaşı **Qəhrəman Ağayevin** vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının əməkdaşları kafedranın assisteni Rəfail Musayevə anası **Fənarə Musayevanın** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

## İstedadlı tələbə

# Şəfalı əllər rəsm çəkməyi də bacarır



**Universitetimizin istedadlı tələbələrindən biri də Fəridə İbrahimlidir. O, 2 iyun 2006-cı ildə Bakı şəhərində anadan olub. Xarici Dillər Təmayüllü Gimnaziyada 8 il təhsil alıb, 2023-cü ildə isə paytaxtın 238 saylı tam orta məktəbini bitirib. Elə həmin ildə ATU-nun Müalicə-profilaktika fakültəsinə daxil olub. Hazırda 2-ci kursda oxuyur.**

Özünün bildirdiyinə görə, neyrobiologiya, neyrocərrahiyyə, animasiya, rəssamlıqla maraqlanır, mütaliəni sevir. Yaxşı əl qabiliyyəti var. Gözəl rəsmlər çəkir. Azərbaycan Tibb Universitetini də təsadüfən seçməyib: "9-cu sinifdə oxuyanda 4-cü qrupu seçdim. Çünki ən sevdiyim fənlər bu qrupda idi. Həmin dövrdə gələcək peşəm barədə çox qərarsız idim. Nəhayət, beyin orqanına olan heyranlığım və marağım məni tibb sahəsinə gətirdi. Beləliklə, ölkəmizin ən öndə gedən universitetini – Azərbaycan Tibb Universitetini hədəf seçərək hazırlaşmağa başladım. Qəbul olanda çox sevindim. Elə 1-ci kursun 2-ci semestrində universitetin Tələbə Gənclər Təşkilatının nəzdində fəaliyyət göstərən "Rəsm" klubunda idarə heyətinin üzvü oldum, növbəti semestr isə klubun sədri seçildim. Düşünürəm ki, universitet həyatı yalnız dərslərlə məhdudlaşmamalı, tələbə həm də incəsənətlə maraqlanmalı, bunu sosial fəaliyyətlərlə birləşdirməlidir. Universitetimizdə rəsmlə maraqlanan çox istedadlı tələbələr var. Digər idarə heyəti üzvlərimizlə birlikdə bu üç semestr ərzində bir çox sərgilər və yaradıcı tədbirlər təşkil etmişik".

"Rəsm" klubunun təşkilatçılığı ilə bir neçə rəsm sərgisi keçirilib, rəssam Şəms Səttarzadə ilə birgə seminar hazırlanıb. Gələcəkdə də sərgi və seminar keçirmək planları var: "İlk dəfə ibtidai sinifdə qələmlə anamın portretini çəkmişəm. Portretin kifayət qədər oxşar alınması mənə bu sahədə qabiliyyətim olduğunu hiss etdirdi və elə o andan rəsmə olan marağım daha da artdı. O gündən etibarən rəsm həyatımın ayrılmaz bir hissəm oldu. Bu gün də düşünürəm ki, çəkdiyim rəsmlərin keyfiyyəti təbii istedadımla bağlıdır. Son beş ildə rəssamlıq bacarığımı müəyyən dərəcədə qoruyub saxlaya bilmişəm. Ən məhsuldar dövrüm 8-ci sinifdə olub. Son vaxtlar isə dərsimin çoxluğundan rəsm çəkə bilmirəm".





Fəridə ən çox gül rəsmləri çəkməyi xoşlayır. Bununla yanaşı, ingilis dili müəlliməsinin və qrup yoldaşı Nurtac Süleymanovanın portretlərini də çəkib. Rəngli və qara karandaşlarla işləməyi sevir: "Çünki bu materiallarla daha detallı və dəqiq işləyə bilirəm. Xüsusilə natürmort janrında işləməyi xoşlayır, ən çox isə gül rəsmləri çəkməkdən zövq alıram".

Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır

"Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, ATU-nun "Təbib" nəşriyyatında çap olunur və universitet daxilində yayılır

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 0011
Sayı 800